# Nazir Salyanda vətəndaşları qəbul edib

Sentyabrın 28-də elm və təhsil naziri Emin Əmrullayev Şirvan şəhəri, Hacıqabul, Neftçala, Biləsuvar və Salyan rayonlarında qeydiyyatda olan sakinləri qəbul edib. Qəbulda qeyd olunan şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, tələbələrin köçürülməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

# MDU "Erasmus+" proqramının qalibi olub

Mingəçevir Dövlət Universitetinin (MDU) koordinatorluğu ilə hazırlanmış və təqdim edilmiş "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi" (Enhancing sustainable entrepreneurial ecosystem in Higher Education Institutions of Azerbaijan — ENGAGE) mövzusunda "Erasmus+" layihəsi Avropa Komissiyası tərəfindən maliyyələşdirmə üçün qəbul edilib. Bununla da, MDU koordinator statusunda "Erasmus+" layihəsində qalib gələn ilk region universiteti olub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, layihənin əsas məqsədi Azərbaycanın müvafiq ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsindən, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsindən və innovativ yanaşmanın təkmilləşdirilməsindən ibarətdir. Layihə çərçivəsində reallaşdırılması nəzərdə tutulan tədbirlər ali təhsil müəssisələrində daha çox innovativ ideyaların yaradılmasını, tədris prosesinin məzmununda praktiki komponentlərin artırılmasını, startap fəaliyyətlərinin genişləndirilməsini və universitet—sənaye əməkdaşlığının inkişaf etdirilməsini nəzərdə tutur. Layihənin icrası zamanı Avropa İttifaqı ölkələrini təmsil edən tərəfdaş universitetlərin müsbət təcrübəsi öyrəniləcək, layihədə iştirak edən Azərbaycan ali təhsil müəssisələrinin əməkdaşları üçün çoxsaylı təlimlər təşkil ediləcək.

MDU-nun koordinatorluğu və idarəçiliyi ilə həyata keçiriləcək ENGAGE layihəsi 36 ay ərzində reallaşdırılacaq. Layihənin ilkin büdcəsi 800 min avrodur. Layihənin məzmununun hazırlanmasında Bakı Biznes Universitetinin təcrübəli əməkdaşları da fəal iştirak ediblər.

Layihənin əsas benefisiarları qismində Azərbaycanın 11 ali təhsil müəssisəsi (Mingəçevir Dövlət Universiteti, Bakı Biznes Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Odlar Yurdu Universiteti) nəzərdə tutulub.

Eyni zamanda, layihənin Azərbaycandan olan tərəfdaşları sırasında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (İB) da yer alıb.

ENGAGE layihəsinin 5 Avropa İttifaqı ölkəsini təmsil edən tərəfdaş universitetləri bunlardır: Estoniyadan Tallin Texnologiya Universiteti (Tallin University of Technology), İsveçdən KTH Royal Texnologiya İnstitutu (KTH Royal Institute of Technology), Portuqaliyadan Lissabon Universiteti (University of Lisbon), İspaniyadan Kataloniya Politexnik Universiteti (Polytechnic University of Catalonia), Polşadan WSG İqtisadiyyat Universiteti (WSG University of Economy).

Qeyd edək ki, hazırda sürətlə modernləşən və yeni dövrün universitetinə çevrilməyi hədəfləyən MDU-da akademik-inzibati heyətin və tələbələrin bilik və bacarıqlarının artırılması, innovativ tədris texnologiyalarının və müasir tədqiqat metodlarının tətbiqi, startap fəaliyyətlərinin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə, MDU-da beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə, qabaqcıl xarici universitetlərin təcrübəsinin öyrənilməsinə və Avropa İttifaqının "Erasmus+" proqramı çərçivəsində təqdim edilən imkanlardan faydalanmağa xüsusi önəm verilir.

# Təhsildə davamlı keyfiyyət təminatı

"Azərbaycanın təhsildə keyfiyyət təminatı sistemi inkişaf etmiş sistemdir. Bir çox ölkələr buna nail ola bilmədilər. Almaniyada da bu, asan olmadı". Bunu hazırda Azərbaycanda olan 2009-2013-cü illərdə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyasının (ENQA) prezidenti olmuş Achim Hopbach deyib. Qeyd edək ki, Achim Hopbach və təhsildə keyfiyyət təminatı sahəsində təcrübəsi olan ölkələrin mütəxəssisləri Bakıda Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı ilə keçirilən "Təhsildə davamlı keyfiyyət təminatı" adlı beynəlxalq konfransda iştirak edir. Dünəndən işə başlayan konfrans "Baku Marriott Boulevard Hotel"də bu gün də davam edir.

## Emin Əmrullayev: "Öyrənmə prosesi və keyfiyyət mədəniyyəti Azərbaycan məktəbinin vacib prioritetinə çevrilənə qədər proses davam edəcək"






### Ali təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı akkreditasiya meyarları təsdiq ediləcək

Sözügedən konfransın əsas məruzəçilərindən elm və təhsil naziri Emin Əmrullayev təhsildə keyfiyyətlə bağlı fəal müzakirələr aparıldığını vurğulayaraq həm Elm və Təhsil Nazirliyinin, həm də Təhsildə Keyfiyyət Agentliyinin bu istiqamətdə tədbirlərinə diqqət çəkib. Nazir təhsildə keyfiyyətin tənzimlənməsi məqsədilə aparılacaq işlərdən danışaraq bir sıra yenilikləri konfrans iştirakçıları ilə paylaşıb: "Növbəti həftələrdə, hətta günlərdə Elm və Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı akkreditasiya meyarları təsdiq ediləcək. Bu, ölkəmizdə çoxdan gözlənilən məsələ idi və inanırıq ki, sənəd kağız üzərində qalmayacaq, ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən vacib sənədə çevriləcək. Sənəd növbəti illərdə ali təhsil müəssisələrində bir çox ixtisasların açılması və ya bağlanması, qəbul proqnozlarının formalaşması istiqamətində əsas rol oynayacaq".

### Ali təhsil müəssisələrinin akkreditasiyası yaxın bir-iki il ərzində yekunlaşdırılacaq

Meyarların təsdiqindən dərhal sonra ölkəmizdəki ali təhsil müəssisələrinin akkreditasiyası prosesinə başlanacağını bildirən nazir prosesin yaxın bir-iki il ərzində yekunlaşdırılacağının proqnozunu da verib. Bu prosesdə ortaya çıxacaq hesabatların ölkə ictimaiyyətinə, maraqlı olan şəxslərə açıq olacağını, proseslə bağlı mütəmadi informasiya paylaşılacağını deyib. Akkreditasiyanın müstəqil həyata keçirildiyini söyləyən E.Əmrullayevin sözlərinə görə, prosesi nazirliyin əməkdaşları deyil, ayrı-ayrı ixtisaslaşmış qruplar həyata keçirəcək: "Onların rəyi və rəy xarakterli hesabatlar ictimaiyyətə açıq olacaq. Burada önəmli məsələ bizim hazırladığımız meyarların Avropa standartları və Boloniya prosesindən irəli gələn standartlara uyğunlaşdırılmasıdır. Artıq bir sıra təhsil müəssisələrimiz beynəlxalq akkreditasiyadan keçirlər. Müəyyən edilmiş siyahı üzrə olan təşkilatlarda akkreditasiyadan keçən təhsil müəssisələrini daxili akkreditasiyadan azad edə bilirik".

Nazir ali təhsil sisteminin idarəetməsinin əsas elementlərinin elə də çox olmadığını vurğulayıb: "Bu, qəbul planı və adambaşına maliyyələşmənin məbləğidir. Dolayısı ilə, Elm və Təhsil Nazirliyinin əsas 2 aləti bunlardır. Məhz akkreditasiya vasitəsi ilə tədrisi daha keyfiyyətli təşkil edən və keyfiyyətli məhsul yaradan ali təhsil müəssisələrində daha çox tələbənin oxumasını ədalətli hesab edirik".

Azərbaycan ali təhsil müəssisələrinin çox dar profil üzrə fəaliyyət göstərdiyini deyən nazirin fikrincə, bu, onların bəzilərinin adlarında, bəzilərində ayrı-ayrı ixtisaslardan görünür:

"Qarşımızda ayrı-ayrı ixtisas və ya peşələrdə istər ixtisas proqramlarının, istərsə də standartların, məzmunun dəyişməsi ilə bağlı ciddi bir yol açılacaq".

Nazirin fikrincə, keyfiyyət mədəniyyətinin təhsil siyasətinin mərkəzinə gətirilməsinin, ritorikadan uzaqlaşıb daha ölçüləbilən və qərarlar verilə bilən hesabatlılıq formatının tətbiqi Azərbaycan təhsili üçün faydalı olacaq.

### Məktəbdə həyata keçirilən işlər öyrənməyə xidmət etmir, öyrənməklə nəticələnmirsə, deməli, məktəb öz işi ilə məşğul deyil

Ümumi təhsil pilləsində keyfiyyətin də önəmli istiqamət təşkil etdiyini vurğulayan E.Əmrullayev məktəblərdə keyfiyyətin təminatı və keyfiyyətə nəzarət mexanizmləri ilə bağlı müəyyən ilkin tədqiqatlar olduğunu bildirib: "Burada da bizi narahat edən məqamlar var. Bu gün məktəblərdə təhsilalanlara təqdim etdiyimiz məzmun, onlarda formalaşdırmalı olduğumuz səriştələr onların özünün, o cümlədən ölkəmizin həyatında nə qədər faydalı olur? Ona görə də 2 sual qoyuruq. Məktəblərdə uşaqlar öyrənir, ya yox? Onların öyrəndikləri faydalıdır, yoxsa yox? Təbii ki, məktəb özü instutsional nöqteyi-nəzərdən öz funksiyasını yerinə yetirmək iqtidarındadır, yoxsa yox? - bu da önəmli amildir. Məktəb və onun ətrafında olan iştirakçıların qeyd etdiyim sualların cavabını anlaması vacibdir".

Nazir Azərbaycan təhsilində keyfiyyətə tam nail olana qədər prosesin davam edəcəyini deyib: "Biz təhsildə keyfiyyətdən danışırıq və keyfiyyət özü-özlüyündə proseslərin mərkəzində dayanır. Əminəm ki, hər məktəb direktorunun gündəlik həyatında təsərrüfatçılıq, şagirdərlə, valideynlərlə münasibətlərin tənzimlənməsi, insanlarla ünsiyyətin qurulması və sair kimi səy tələb edən sahələr var. Məktəbdə həyata keçirilən işlər öyrənməyə xidmət etmir, öyrənməklə nəticələnmirsə, deməli, məktəb öz işi ilə məşğul deyil. Öyrənmə prosesi və keyfiyyət mədəniyyəti Azərbaycan məktəbinin vacib prioritetinə çevrilənə qədər proses davam edəcək".

Nazir əmindir ki, ümumi təhsil sahəsində görülən işlər - regional təhsil idarələrinin yaradılması, keyfiyyət təminatı sahəsində, o cümlədən şagird nailiyyətləri ilə bağlı monitorinqlərin aparılması, ölkəmizin beynəlxalq qiymətləndirmə sistemlərinə qayıtması və deməli olar ki, bütün qiymətləndirmə tədqiqatlarında iştirakının faydası olacaq.

### Beynəlxalq ekspertlər ali və ümumi təhsil müəssisələrinin nümayəndələrinə təlim keçəcəklər

Konfransda Niderland Krallığının Təhsil üzrə İnspeksiya İdarəsinin Ali Təhsil Departamentinin direktoru Hendrik Martijnse, ali təhsil üzrə beynəlxalq ekspert, 2009-2013-cü illərdə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyasının (ENQA) prezidenti olmuş Achim Hopbachin dünya təcrübəsindən sitat gətirməklə təhsildə keyfiyyətin təminatı prosesinə dair çıxışları da maraqla qarşılanıb.

Konfransın ilk günündə panel müzakirələr zamanı keyfiyyət təminatı sahəsi üzrə Avropa və dünyanın qabaqcıl beynəlxalq təşkilatlarından olan Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) vitse-prezidenti Olgun Çiçek, Təhsil İnstitutunun direktoru Rüfət Əzizov, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev ali təhsildə daxili və xarici keyfiyyət təminatı sisteminin Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG) uyğun təşkil, ümumi və ali təhsil pillələri arasında keyfiyyət təminatının davamlılığının təmin edilməsi barədə müzakirələr aparıblar.

Müzakirələr zamanı təhsildə keyfiyyət təminatı sahəsi üzrə həyata keçirilən layihələrdə və təcrübə mübadiləsində əməkdaşlıq məsələlərinə də toxunulub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Bu gün beynəlxalq ekspertlər ali və ümumi təhsil müəssisələrinin nümayəndələri üçün praktik təlimlər keçəcəklər.

**Ruhiyyə DAŞSALAHLI**